# Ulu öndər Heydər Əliyevin xatirəsi Türkiyədə daim böyük ehtiramla anılır

## *Mersində ümummilli liderin anadan olmasının 93-cü ildönümü ilə bağlı silsilə tədbirlər keçirilib*

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin adı ilə bağlı olan tədbirlər, konfranslar, xatirə günləri və yubiley mərasimləri qardaş Türkiyədə də böyük sevgi və coşqu ilə keçirilir. Bakının Xətai Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə ulu öndərin anadan olmasının 93-cü ildönümü ilə bağlı qardaş ölkənin Mersin vilayətində düzənlənən tədbirlər isə xüsusilə fərqlənmişdir. Xətai RİH başçısı Razim Məmmədov, Milli Məclisin deputatları Hüseynbala Mirələmov və Fuad Muradov, Xətai rayon bələdiyyəsinin rəhbəri Əliyar Əliyev və digər şəxslərin daxil olduğu Azərbaycan nümayəndə heyətinin Mersin vilayətinə səfəri də elə bu yubiley tədbirlərində iştirak etmək məramından irəli gəlmişdi.

Səfərin ilk günü azərbaycanlı qardaşlarını səmimi qəbul edən Mersin Böyükşəhər Bələdiyyəsinin sədri Burhanəddin Kocamaz Türkiyə ilə Azərbaycan arasında əsasını ulu öndər Heydər Əliyevin qoyduğu strateji əlaqələrin yüksək səviyyədə və uğurla inkişaf etdiyini vurğulayaraq bildirdi ki, vilayətin Tarsus rayonu ilə Bakının Xətai rayonunun simasında iki ölkənin yerli hakimiyyət orqanları arasındakı əməkdaşlıq, heç şübhəsiz, bu münasibətlərin daha da dərindən inkişafına xidmət edir.

Qarşılıqlı maraq doğuran və hər iki ölkənin strateji əməkdaşlığından irəli gələn bu kimi ikitərəfli münasibətlər haqqında Mersin vilayətinin Tarsus şəhər bələdiyyəsinin sədri Şövkət Canla görüş zamanı da geniş fikir mübadiləsi aparıldı. Söhbət zamanı türk dünyasının böyük öndəri Heydər Əliyevin Azərbaycan-Türkiyə münasibətlərinin inkişafına misilsiz xidmətləri barədə geniş söhbət açıldı və xatirəsi ehtiramla yad edildi. Nümayəndə heyətinin başçısı Razim Məmmədov səmimi qəbula görə Şövkət Cana minnətdarlıq edərək Mersin və Tarsus bələdiyyələrinin rəhbərlərini bu ilin iyulunda Bakıya səfərə dəvət etdi. Görüşdə qeyd edildi ki, ulu öndər Heydər Əliyevin adı ilə bağlı olan tədbirlərin birgə təşkil edilməsi Bakının Xətai rayonu ilə Mersinin Tarsus şəhərinin qardaşlaşmış şəhərlər formatı çərçivəsindəki əməkdaşlığında artıq xoş bir ənənəyə çevrilməkdədir.

2007-ci ildə başlanan bu əməkdaşlıq nəticəsində 2011-ci ilin mart ayında Tarsusdakı məşhur Berdan çayı üzərindən salınan körpüyə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin adı verilmişdir. Sonrakı illərdə qarşılıqlı səfərlər zamanı əldə edilmiş razılığa əsasən, ümummilli lider Heydər Əliyevin adını daşıyan bu körpünün yaxınlığındakı 2,5 hektar ərazidə yeni parkın salınması və həmin parka ulu öndər Heydər Əliyevin adının verilməsi qərara alınmışdır. Bir il əvvəl - türk dünyasının əvəzsiz liderinin 92-ci doğum günündə isə hər iki ölkənin dövlət və hökumət rəsmilərinin iştirakı ilə Tarsusdakı Heydər Əliyev Parkının və burada ucaldılmış ulu öndərin abidəsinin təntənəli açılış mərasimi olmuşdur. Həmin andan başlayaraq, bu park uşaqdan böyüyə qədər bütün yerli sakinlərin və xarici ölkələrdən gələn qonaqların sevimli istirahət guşəsinə çevrilmişdir.

Mayın 5-də Tarsusda böyük türk oğlu Heydər Əliyevin adını daşıyan parkda yenə möhtəşəm izdiham var idi. Azərbaycanın ümummilli lideri Heydər Əliyevin anadan olmasının 93-cü ildönümü ilə bağlı möhtəşəm tədbir düzənlənmişdi. Mersin və Tarsusun dövlət və bələdiyyə orqanlarının rəhbərləri, Azərbaycan nümayəndə heyətinin, yerli ictimaiyyətin nümayəndələrinin, ziyalıların və məktəblilərin qatıldığı bu möhtəşəm tədbirə iki ölkənin dövlət himnlərinin səsləndirilməsi və türk dünyasının iki dahi şəxsiyyəti Mustafa Kamal Atatürkün və Heydər Əliyevin, Azərbaycan və Türkiyənin müstəqilliyi və ərazi bütövlüyü uğrunda canından keçən şəhidlərin xatirəsinə sayğı duruşu ilə start verildi.

Tədbirə evsahibliyi edən Mersin Böyükşəhər Bələdiyyəsinin sədri Burhanəddin Kocamaz azərbaycanlı qardaşlarını rəsmən salamlayaraq bildirdi ki, türk dünyasının tanınmış liderlərindən olan Heydər Əliyevin Azərbaycanın dövlət müstəqilliyinin qorunmasında, güclənməsində, qardaş ölkənin Türkiyə ilə münasibətlərinin strateji müstəviyə keçirilməsində və inkişafında göstərdiyi misilsiz xidmətlər Azərbaycanda olduğu kimi, Türkiyədə də ehtiramla xatırlanır. Heydər Əliyev türk dünyasının heç zaman unutmayacağı liderdir.

Natiq dünyanın indiki düzənində Türkiyə-Azərbaycan qardaşlığının, strateji müttəfiqlik münasibətlərinin, xalqlarımız arasında qarşılıqlı əlaqələrin yüksək səviyyəsinin bütün türk dünyasına bir nümunə olduğunu vurgulayaraq qeyd etdi ki, bu münasibətləri gələcək nəsillər əbədiyyətə qədər daşımağa borcludurlar.









Xətai RİH başçısı Razim Məmmədov nitq söyləyərək dedi ki, Azərbaycan - Türkiyə əlaqələrinin çox böyük tarixi var. Ortaq kök, dil, din birliyi, oxşar mədəniyyət, adət və ənənələr isə bugünkü əlaqələrimizi şərtləndirən əsas amillərdəndir. Türkiyə və Azərbaycan öz tarixlərinin ən mürəkkəb dövrlərində bir-birinə dəstək olduqlarını nümayiş etdirmişlər. 1918-ci ildə Nuru Paşanın komandanlığı ilə Türk Qafqaz İslam Ordusunun uzun mübarizələr və müharibələr nəticəsində Bakını xilas etməsi Azərbaycan üçün önəmli dönüş nöqtəsi idi. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin dediyi kimi: “Türk ordusunun Azərbaycana, Bakıya gəlməsi, Azərbaycanı daşnakların təcavüzündən xilas etməsi hər bir azərbaycanlının qəlbində yaşayır. Azərbaycan xalqı həmin ağır dövrdə türk xalqının ona göstərdiyi köməyi heç vaxt unutmayacaqdır”. Anadoluda Qazi Mustafa Kamal Atatürkün önderliyi ilə aparılan milli mücadiləyə də azərbaycanlılar maddi və mənəvi yardım göstərmişlər, canlarını qurban verməkdən belə çəkinməmişlər.

Ulu öndər Heydər Əliyev çıxışlarında daim qardaş ölkələrin ortaq tarixi irs üzərində gələcəyə birgə addımlayacağını vurğulayaraq deyirdi: “Biz kökü bir olan xalqıq. Bizim tariximiz bir, dilimiz bir, dinimiz birdir. Ona görə də tariximiz, milli köklərimiz, adət və ənənələrimizin hamısı bizi bir-birimizə sıx bağlayıbdır. Əsrlər boyu tarixin bütün mərhələlərində bizi bir-birimizdən ayırmağa çox çalışsalar da, buna müvəffəq olmamışlar. Xalqlarımız bu həsrətlə yaşayıblar və nəticədə də bir-birinə qovuşublar. Bundan sonra heç bir qüvvə bizi ayıra bilməyəcəkdir”.

R.Məmmədov ulu öndər Heydər Əliyevin “Biz bir millət, iki dövlətik” kəlamını xatırladaraq qeyd etdi ki, ümummilli liderin XX əsrin sonunda bünövrəsini qoyduğu Azərbaycan -Türkiyə qardaşlıq münasibətləri bu gün Azərbaycan Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla inkişaf etdirilir. İndi elə bir beynəlxalq tədbir yoxdur ki, orada Azərbaycanla Türkiyə qardaş dövlətlər kimi vahid mövqe nümayiş etdirməsinlər.

Milli Məclisin deputatı, YAP Xətai rayon təşkilatının sədri Hüseynbala Mirələmov bildirdi ki, Heydər Əliyevin “Biz bir millət, iki dövlətik” və Mustafa Kamal Atatürkün “Azərbaycanın sevinci bizim sevincimiz, kədəri isə bizim kədərimizdir” fikirləri həm Türkiyədə, həm də Azərbaycanda iki ölkə arasındakı münasibətlərin tarixini, bugününü və perspektivlərini özündə dəqiq ifadə edən ən mükəmməl formul kimi bütün zamanlarda yaşayacaq.

Natiq ulu öndərin xarici siyasətində Türkliyənin sahib olduğu yeri dəqiq göstərmək üçün araşdırmalarından bir faktı diqqətə çatdıraraq bildirdi ki, Heydər Əliyevin Azərbaycan Prezidenti olaraq Türkiyəyə üç rəsmi, iki qeyri-rəsmi, on beş işgüzar səfər etməsi ümummilli liderin xarici siyasət konsepsiyasında Türkiyəyə verdiyi əhəmiyyətin və ölkələr arasındakı strateji birliyin çox fərqli olduğunun bariz göstəricisidir.

Tədbirdə Tarsus şəhər bələdiyyəsinin sədri Şövkət Can, Azərbaycan parlamentinin Gənclər və idman komitəsinin sədri Fuad Muradov qeyd etdilər ki, dahi şəxsiyyətin təşəbbüsü ilə həyata keçirilən beynəlxalq strateji layihələr bu gün böyük bir regionun həyatında, xalqların maddi rifah halında mühüm rol oynamaqdadır. Bu da onu göstərir ki, ümummilli liderin müəyyənləşdirdiyi strateji xətt onun varisi olan Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən qətiyyətlə və uğurla davam etdirilir.

Rəsmi toplantı başa çatdıqdan sonra qonaqlar, Mersin və Tarsus şəhərlərinin dövlət və bələdiyyə nümayəndələri ulu öndər Heydər Əliyevin parkdakı əzəmətli abidəsi önünə tər çiçəklər qoyub, dahi şəxsiyyətin əziz xatirəsini bir daha ehtiramla yad etdilər.

Tədbirin bədii hissəsi də böyük təntənə ilə keçdi. Burada nümayiş etdirilən və səsləndirilən iki qardaş ölkənin mədəniyyət və incəsənət nümunələri tamaşaçılar tərəfindən böyük alqışlar qazandı. Bədii hissə başa çatdıqdan sonra qonaqlar və toplantı iştirakçıları parkı gəzərək Heydər Əliyev körpüsünə gəldilər və burada xatirə şəkli çəkdirdilər.

* * *

Azərbaycan nümayəndə heyəti ulu öndər Heydər Əliyevin anadan olmasının 93-cü ildönümü ilə bağlı Tarsusun təhsil müəssisələrində keçirilən tədbirlərdə də iştirak edib. Şəhərin ən nüfuzlu tədris müəssisələrindən biri olan Kampus Kollecinin şagirdləri Azərbaycandan gələn qonaqları səmimiyyətlə qarşılayaraq odlar yurdu, ulu öndərlə bağlı şeirlər səsləndirdilər.

Kollecin rəhbərliyi ilə keçirilən görüşdə isə türk dünyasının yetişdirdiyi ən görkəmli şəxsiyyətlərdən biri olan Heydər Əliyevin Azərbaycan-Türkiyə dostluğuna və qardaşlığına verdiyi misilsiz töhfələr qeyd edildi. Razim Məmmədov bildirdi ki, Azərbaycanın ümummilli lideri Heydər Əliyevin Azərbaycan-Türkiyə münasibətlərinin inkişafındakı xidmətlərinin əsas göstəricilərindən biri də, onun Türkiyənin “Dövlət nişanı” və Beynəlxalq Atatürk Sülh Mükafatına layiq görülməsi, dəfələrlə Türkiyənin müxtəlif media qurumları tərəfindən “İlin adamı” seçilməsi, bu ölkənin bir çox universitetlərinin Fəxri doktoru adını almasıdır. Biz bununla qürur duyuruq.

Görüş zamanı bu tədris müəssisəsinin Xətai rayonundakı orta məktəblərdən biri ilə qardaşlaşması haqqında da ilkin razılıq əldə edildi və bu cür əlaqələrin ulu öndər Heydər Əliyevin iki ölkənin strateji tərəfdaşlığının tarixi formulu kimi bəyan etdiyi “Biz bir millət, iki dövlətik” kəlamından irəli gələn əbədi qardaşlığımızın daha da güclənməsinə xidmət edəcəyi vurğulandı.

***“Azərbaycan”***